# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi arasında xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya üzrə qarşılıqlı fəaliyyət haqqında

# Protokol

Bundan sonra Tərəflər adlanan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi,

Ticarət danışıqları aparılması üçün xarici ticarət üzrə Tərəflərin dəqiq və müqayisə edilə bilən məlumatlarının vacibliyini etiraf edərək,

Qarşılıqlı ticarət üzrə məlumatlar mübadiləsinin xarici iqtisadi fəaliyyət sahəsində hüquq pozuntularının aşkar edilmə metodlarından biri hesab edərək,

İki ölkənin qarşılıqlı ticarət haqqıda informasiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə çalışaraq,

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 27 may 1996-cı il tarixli Sazişi rəhbər tutaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

1. Müntəzəm olaraq xarici ticarətin statistikasının formalaşdırılması və statistik informasiyanın təhlili sahəsində qarşılıqlı məsləhətləşmələr aparmaq və metodoloji işləmələri mübadilə etmək.

2. Hər rüb Müstəqil Dövlətlər Birliyi Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının 4 rəqəmli səviyyəsində ölkə-mal kəsiyində formalaşdırılmış dəyər və natural ifadələrdə qarşılıqlı ticarət üzrə məlumatları mübadilə etmək.

3. Yazılı müraciətə əsasən məlumatlarındakı uyğunsuzluqlar yol verilən həddən artıq olan qarşılıqlı razılaşdırılmış mal mövqeləri üzrə informasiyanı, ayrı-ayrı hallarda isə, bu uyğunsuzluqların səbəblərinin əlavə araşdırılması üçün hər iki Tərəfin dövlətinin xarici iqtisadi fəaliyyət iştirakçılarının ticarət əməliyyatları barədə informasiyanı bir-birinə vermək.

4. Tərəflər mövcud uyğunsuzluqların mümkün səbəblərini şərh etməklə iki ölkənin qarşılıqlı ticarəti haqqında məlumatların tutuşdurulmasının nəticələrinə dair bir-birini müntəzəm surətdə məlumatlandırmağı öhdələrinə götürürlər.

5. Xidməti yazışma rus dilində aparılır.

6. Bu Protokolun şərhi və tətbiqi ilə bağlı yarana bilən bütün məsələlər danışıqlar yolu ilə həll ediləcəkdir.

7. Tərəflərin qarşılıqlı razılaşmasına əsasən bu Protokola onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklər və əlavələr daxil edilə bilər.

8. Bu Protokol beş il müddətinə bağlanır və Tərəflərin bir-birini zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla son yazılı xəbərdarlıq günündən etibarən qüvvəyə minir. Protokolun qüvvəsi növbəti beşillik müddətə avtomatik olaraq uzadılacaq və Tərəflərdən biri digər Tərəfə özünün onun qüvvəsinə xitam verilməsi niyyəti barədə yazılı bildiriş göndərdiyi tarixdən altı ay keçənədək öz qüvvəsini saxlayacaqdır.

Bakı şəhərində 25 iyul 2000-ci il tarixdə iki orijinal nüsxədə Azərbaycan, özbək və rus dillərində bağlanmışdır, özü də bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Protokolun müddəalarının şərhində fikir ayrılığı yarandıqda rus dilində mətn tətbiq ediləcəkdir.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından*** | ***Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi adından*** |

***Azərbaycan Respublikasının Prezidentinin 4 iyul 2001-ci il tarixli 753 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir («VneshExpertService»).***

*© VneshExpertService*